**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**Xidmət statistikası şöbəsi**

# TURİZM STATİSTİKASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**01.05.2013**

Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

## Mündəricat


1. Statistik prosesə və məhsullara giriş...................................................... 3
2. Aktuallıq............................................................................................. 5
3. Dəqiqlik.............................................................................................. 6
4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................. 6
5. Bərabər giriş və aydınlıq......................................................................... 7
6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik................................................ 8
7. Çıxış keyfiyyət komponentləri arasında seçim........................................... 10
8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 10
9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük....................................... 10
10. Məxfilik, şəffaflıq və təhlükəsizlik............................................................ 11
11. Yekun................................................................................................. 11

## 1. Statistik prosesə və məhsullara giriş

***Sorğunun qısa təsviri***

Turizm və iaşə statistikası sektoru turizm fəaliyyəti ilə məşğul olan təşkilatların statistik müşahidələrlə əhatə olunmasını, turizm statistikası üzrə aparılan işlərin mərkəzləşdirilməsini və təkmilləşdirilməsini, beynəlxalq müqayisəliliyin təmin edilməsi, qabaqcıl statistik hesablama metodlarının praktikada tətbiq edilməsini həyata keçirir.

Turizm statistikasına dair məlumatlar rəsmi statistika hesabatları və xüsusi təşkil olunmuş seçmə statistika müşahidələri əsasında əldə edilir. Rəsmi statistika hesabat formalarının məlumatları əsasında ölkədə turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin sayı, işçilərin sayı, bu müəssisələrin əldə etdikləri gəlir və xərcləri, turizm yollayışları vasitəsi ilə ölkə daxilində və xarici ölkələrdə səyahət edən ölkə vətəndaşlarının sayı, ölkəyə gələn xarici turistlərin sayı, turizm məhsulunun (turların) formalaşdırılmasına çəkilən xərclər (yerləşdirmə, nəqliyyat xidməti, qidalanma, ekskursiya xidmətləri, viza xidmətləri və digər xərclər), turizm yollayışlarının sayı və dəyəri, yerləşdirmə yerlərinin və nəqliyyat xidmətlərinin növlərindən istifadəyə görə turistlərin sayı, tur-günlərin sayı, mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin (otaqların) sayı, birdəfəlik tutum, yerləşdirilmiş şəxslərin və gecələmələrin sayı (rezident və qeyri-rezidentlər üzrə), yerləşdirilmiş şəxslərin səfərlərin məqsədi və yaşama müddəti üzrə sayı, həmçinin yerləşdirilmiş xarici ölkə vətəndaşlarının ölkələr üzrə sayı və nömrələr və digər xidmətlərə görə ödədikləri məbləğ və s. haqqında məlumatlar əldə edilir.

***Müşahidə vahidləri***

Turizm statistikasına dair məlumatların əldə edilməsi məqsədilə ölkə ərazisində fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələr və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər, turizm müəssisələri (turoperator, turagentliklər) müşahidə vahidləri qəbul edilir və müşahidə başdan-başa aparılır.
Gəlmə və getmə turizminə dair seçmə statistika müşahidələrinin aparılması üçün ölkə


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

sərhədlərini keçən xarici vətəndaşlar və Azərbaycan Respublikasının vətəndaşları müşahidə vahidləri kimi qəbul edilir. Sorğu sərhəd-keçid məntəqələrində aparılır. Xarici ölkə vətəndaşları səfərlərini başa vurub öz ölkələrinə qayıtdıqları zaman, Azərbaycan Respublikasının vətəndaşları ölkəyə isə döndükləri zaman sorğu olunur.

Sorğu eyni vaxtda 8 sərhəd-keçid məntəqəsində aparılır. 2012-ci ildə 34 000 (13 733 Azərbaycana gələn xarici vətəndaş, 20267 xarici ölkələrə gedən Azərbaycan vətəndaşı) respondent sorğuya cəlb olunmuşdur. Bu rəqəm ay ərzində sərhəddən keçənlərin ümumi sayının təqribən 3,4 faizini təşkil edir. Sorğu iki mərhələdə - turizm mövsümündə (iyun ayında) və digər dövrdə ( noyabr ayında) aparılır. İllik hesablamalar üçün seçmə orta kəmiyyətlər hər iki dövrün göstəricisi nəzərə alınmaqla hesablanır. Baş məcmu Dövlət Sərhəd Xidmətinin yarımillik və illik dövriliklə təqdim etdiyi Azərbaycana gələn xarici ölkə vətəndaşları və xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı haqqında məlumatdan istifadə olunur.

Daxili turizmə dair məlumaların əldə edilməsi üçün ev təsərrüfatlarında seçmə statistika müşahidəsi aparılır və bu zaman ev təsərrüfatları müşahidə vahidləri hesab edilir.

***Əsas göstəricilər:***

- mehmanxana və mehmanxana tipli müəssisələrin sayı;
- mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı (lyuks, I dərəcəli və turist dərəcəli nömrələr üzrə);
- mehmanxana və mehmanxana tipli müəssisələrin birdəfəlik tutumu;
- mehmanxana və mehmanxana tipli müəssisələrdə yrləşdirilmiş şəxslərin sayı (Azərbaycan Respublikası vətəndaşları və xarici vətəndaşlar üzrə);
- gecələmələrin sayı (Azərbaycan Respublikası vətəndaşları və xarici vətəndaşlar üzrə);
- turizm müəssisələrinin sayı;
- satılmış yollayış blanklarının sayı, dəyəri (Azərbaycan Respublikasının vətəndaşlarına ölkədaxili və xarici ölkələrə, xarici ölkə vətəndaşlarına Azərbaycan Respublikasının ərazisində səyahət etmək üçün);
- tur-günlərin sayı;
- turizm məqsədilə Azərbaycan Respublikasına gələn xarici vətəndaşların sayı,

  səfərlərin məqsədləri üzrə, keçirilmiş gecələmələrin iqtisadi rayonlar üzrə sayı, istifadə edilmiş nəqliyyat növləri üzrə sayı, xərcləri və s.;
- turizm məqsədilə xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının sayı, səfərlərin məqsədləri, keçirilmiş gecələmələr üzrə, istifadə edilmiş nəqliyyat növləri üzrə sayı, xərcləri və s.

***Sorğu vərəqəsi***

Gəlmə və getmə turizminə dair sorğu vərəqi Birləşmiş Millətlər Təşkilatının Statistika Bürosu və Ümumdünya Turizm Təşkilatı tərəfindən hazırlanmış "Turizm statistikasına dair beynəlxalq tövsiyələr 2008-ci il"-dən istifadə edilməklə tərtib olunmuşdur. Səfərlərin məqsədləri, turizm xərcləri, birgünlük ziyarətçilər və s. üzrə aparılan təsnifatlar qeyd edilən sənədə əsasən nəzərə alınmışdır. Həmçinin sorğu anketinin doldurulmasına dair metodoloji tövsiyələrdə əks olunan tərif və anlayışlar da göstərilən sənədin tələbləri nəzərə alınmaqla verilmişdir.
Mehmanxana və mehmanxana tipli müəssisələrin və turizm müəssisələrinin təqdim etdiyi hesabat formaları mövcud statistik informasiyaya tələbat nəzərə alınmaqla daim təkmilləşdirilir.
Mehmanxana və mehmanxana tipli müəssisələr hesabatı yarımillik dövriliklə müvafiq olaraq fevral və avqust aylarının 20-dək, turizm müəssisələri həmin dövriliklə aprel və sentyabr aylarının 20-dək təqdim edirlər.

## 2. Aktuallıq

Turizm statistikasının aparılması ölkə qanunvericiliyinə əsaslanaraq Birləşmiş Millətlər Təşkilatının Statistika Bürosu və Ümumdünya Turizm Təşkilatının tövsiyələri nəzərə alınmaqla həyata keçirilir. Əldə olunanan məlumatlar dövlət hakimiyyəti orqanlarının, mərkəzi icra hakimiyyəti orqanlarının və digər maraqlı təşkilatların tələbatlarını ödəyir. İstifadə olunan təsnifatlar, təriflər, anlayışlar istifadəçilərin tələblərini əks etdirir və beynəlxalq praktikada qəbul edilən qaydalarla ziddiyət təşkil etmir.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

## 3. Dəqiqlik

Mehmanxana və mehmanxana tipli müəssisələr və turizm müəssisələri başdan-başa müşahidəyə cəlb edildiyindən bu sahədə kənarlaşmalar mövcud deyil. Bu sahədə məlumatların dəqiqlik səviyyəsini artırmaq məqsədilə yerli statistika orqanlarının müvafiq mütəxəssisləri üçün təlimati seminarlar keçirilir, metodologiyalar daima təkmilləşdirilir. Eyni zamanda statistik vahidlər tərəfindən daxil edilən ilkin məlumatlar məntiqi olaraq yoxlanılır.

Seçmə statistika müşahidələri zamanı sorğu vərəqəsinin yanlış tərtibi, məlumatların təhrifi, sorğuçunun səhvlərinin aradan qaldırılması məqsədilə qabaqlayıcı və təshihedici tədbirlər görülür.

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

İlkin məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin "Yerli statistika orqanları üçün statistik işlər proqramı"na əsasən toplanır. Əldə olunan ilkin məlumatlar hesabi və məntiqi cəhətdən yoxlanılır və sonra təhlil olunur. Hesablamanın nəticəsinə əsasən ilk nəticələr hazırlanır. İlkin məlumatların alınması ilə ilk nəticələrin (həmçinin son nəticələrin) hazır olma vaxtı arasında vaxt intervalı bir həftə arasında dəyişir.

*2011-2012-ci illər üzrə **V2 (hesabat dövrünün sonuncu günündən son nəticələrin nəşr gününə qədər günlərin sayı)** göstəricisi (son nəticələrin vaxtlı-vaxtında olması)*

***Cədvəl № 1***

| Hesabat dövrü | 20.04.2011 | 20.04.2012 |
|---|---|---|
| Nəşr tarixi | 15.06.2011 | 18.06.2012 |
| Aralıq vaxt (laq), təqvim günü | 55 gün | 58 gün |
| Aralıq vaxt (laq), iş günü | 29 gün | 32 gün |


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

*2011-2012-ci illər üzrə **V3** göstəricisi (nəşrin tam vaxtında yerinə yetirilməsi)*

***Cədvəl № 2***

| | | |
|---|---|---|
| Hesabat dövrü | 20.04.2011 | 20.04.2012 |
| Elan edilmiş nəşr tarixi | 20.06.2012 | 20.06.2012 |
| Faktiki nəşr tarixi | 15.06.2012 | 16.01.2012 |
| Aralıq vaxt (laq) | -5 | -4 |

## 5. Bərabər giriş və aydınlıq

Turizmə dair statistik məlumatlar istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə vasitə ilə yayılır. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra məruzələr, yarımillik və illik məlumatlar əks olunmuş bülleten, illik məlumatlar əks olunmuş statistik məcmuə Komitənin veb-səhifəsində əks olunur. İllik statistik məcmuələrdə məlumatlar Azərbaycan və ingilis dillərində əks olunur. İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir (http://www.stat.gov.az/source/tourism/). Bundan əlavə göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur. (http://base.azstat.org:8080/MetaData/.

***Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr***

| **Sıra №-si** | **Vasitə** | **Əldə edilmə yeri** |
|---|---|---|
| **1** | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| **2** | Ekspress məlumatlar | www.stat.gov.az |
| **3** | Məlumat bazası | http://base.azstat.org:8080/MelumatBaza/ |
| **4** | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| **5** | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **6** | "Turizm və xidmət" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **7** | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **8** | "Azərbaycan faktlarla" | - |


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

***BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı***

Turizm statistikasına dair məlumatlar "Turizm və xidmət" illik statistik məcmuə və "Ölkə sərhədini keçən Azərbaycan və xarici ölkə vətəndaşları üzrə statistika müayinəsinin nəticələri"nə dair yarımillik bülletendə əks olunur.

*"Turizm və xidmət" illik statistik məcmuə:*

- 34 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;
- 73 nüsxə rayon (şəhər) statistika idarələrinə;
- 46 nüsxə Dövlət Statistika Komitəsinin rəhbərliyi və digər şöbələrə paylanılır.

  *"Ölkə sərhədini keçən Azərbaycan və xarici ölkə vətəndaşları üzrə statistika müayinəsinin nəticələri"nə dair yarımillik bülleten*
- 5 nüsxəsi müxtəlif nazirliklərə və digər dövlət orqanlarına, həmçinin yerli və xarici təşkilatlara;
- 20 nüsxə rayon (şəhər) statistika idarələrinə.

**BA2. *Onlayn məlumat bazasına girişlərin sayı***

http://www.stat.gov.az/link_click_counter/-də turizm statistikasına dair məlumatlardan istifadəçilərin istifadə səviyyəsi %-lə daimi əks etdirilir.

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Turizmə dair statistik məlumatların toplanması beynəlxalq praktikada qəbul edilmiş və beynəlxalq müqayisəliliyi mümkün edən ümumi nəzəriyyə, metodologiyaya əsaslanır. Statistik məhsulların hazırlanmasının bütün addımlarında eyni metodlara istinad edilir və milli hesablara uyğunlaşdırılması nəzərə alınır.

***UM1.Verilmiş dinamika sırasının uzunluğu***

Turizmə dair statistik məlumatlar dinamika sıralarında əks etdirilir. Dinamika sıralarında mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, müəssisələrdə nömrələrin sayı (lyuks, I dərəcəli və turist dərəcəli nömrələr üzrə), birdəfəlik tutumu, yerləşdirilmiş şəxslərin sayı (Azərbaycan Respublikası vətəndaşları və xarici


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

vətəndaşlar üzrə), gecələmələrin sayı (Azərbaycan Respublikası vətəndaşları və xarici vətəndaşlar üzrə), turizm müəssisələrinin sayı, satılmış yollayış blanklarının sayı, dəyəri (Azərbaycan Respublikasının vətəndaşlarına ölkədaxili və xarici ölkələrə, xarici ölkə vətəndaşlarına Azərbaycan Respublikasının ərazisində səyahət etmək üçün), tur-günlərin sayı, turizm məqsədilə Azərbaycan Respublikasına gələn xarici vətəndaşların sayı, səfərlərin məqsədləri üzrə, keçirilmiş gecələmələrin iqtisadi rayonlar üzrə sayı, istifadə edilmiş nəqliyyat növləri üzrə sayı, xərcləri və s. əks olunur:

***Cədvəl № 3***

| **Göstəricilərin adı** | **Dinamika sırasının başlanğıcı (il)** |
|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı | 1990 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə nömrələrin sayı (lyuks, I dərəcəli və turist dərəcəli nömrələr üzrə) | 1990 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum | 1990 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrdə yerləşdirilmiş şəxslər ( Azərbaycan Respublikası vətəndaşları və xarici vətəndaşlar üzrə) | 2001 |
| Mehmanaxana və mehmanxana tipli müəssisələrdə gecələmələrin sayı (Azərbaycan Respublikası vətəndaşları və xarici vətəndaşlar üzrə) | 1997 |
| Mehmanxana və mehmaxana tipli müəssisələrin gəlirləri | 2001 |
| Mehmanaxana və mehmanxana tipli müəssisələrin xərcləri | 2001 |
| Turizm müəssisələrinin sayı | 2001 |
| Satılmış turizm yollayış blanklarının sayı (Azərbaycan Respublikası vətəndaşlarına ölkə daxilində və xarici ölkələrdə, xarici ölkə vətəndaşlarına Azərbaycan Respublikasında səyahət etməık üçün) | 2001 |
| Satılmış yollayış blanklarının dəyəri (Azərbaycan Respublikası vətəndaşlarına ölkə daxilində və xarici ölkələrdə, xarici ölkə vətəndaşlarına Azərbaycan Respublikasında səyahət etmək üçün) | 2001 |
| Xidmət göstərilmiş turistlərin sayı | 2001 |


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12

| | |
|---|---|
| Azərbaycan Resbuplikasına gələn vətəndaşların sayı, o cümlədən turistlər | 2000 |
| Xaricə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı, o cümlədən turistlər | 2000 |
| Azərbaycana gələn xarici turistlərin xərcləri | 2000 |
| Xarici ölkələrə gedən Azəbaycan turistlərinin xərcləri | 2000 |

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Şöbə turizm statistikasının aparılması zamanı bütün keyfiyyət amillərinin yaxşılaşdırılması üçün mövcud imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik və dəqiqlik hər zaman diqqət mərkəzində saxlanılır. Dəqiqlik aspekti üzrə ilkin məlumatların toplanmasına daim nəzarət edilir və mütəmadi olaraq məlumatların dürüstlüyü yoxlanılır.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Turizm statistikasına dair məlumat istifadəçiləri ilə hər il görüş keçirilir. Görüşdə bu sahədə məlumatların əldə edilmə mənbələri, müşahidə üsulları və statistik məhsulun əldə edilməsinin ardıcıllıq prosesi və s. haqqında məlumat verilir, həmçinin istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə onlar tərəfindən verilən təkliflər dinlənilir və imkan daxilində nəzərə alınır. Tələbatların öyrənilməsi eyni zamanda ayrı-ayrı təşkilatların və fiziki şəxslərin müraciətləri əsasında da həyata keçirilir.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

İctimaiyyətin rəsmi statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

Son dövrlərdə hesabatların real-vaxt rejimində təqdim edilməsinə keçilməsi səmərəliliyin yaxşılaşdırılması sahəsində atılan ən mühüm addımlardan biridir. Həmçinin, rəsmi sattistika hesabatlarında mütəmadi olaraq respondentlərə düşən yükün aşağı salınması sahəsində daimi işlər görülür, müxtəlif göstəricilər əsasında

hesablana biləcək göstəricilər və aktuallığını itirmiş göstəricilər hesabat formalarından çıxarılır.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları daima məxfi saxlanılır. Şöbə ilkin məlumatların məxfiliyinin qorunmasına nəzarət edir və bu sahədə mütəmadi olaraq tədbirlər görür.

## 11. Yekun

Turizmə dair statistik məlumatların əhatəliliyinin və müqayisəliliyinin tam təmin edilməsi məqsədilə turizmin köməkçi hesablarının qurulması əsas məqsədlərdən biri kimi müəyyənləşdirilir. Bunun üçün turizm sektoruna aid edilən fəaliyyət sahələrinə dair makroiqtisadi göstəricilərin əldə edilməsi sahəsində işləri həyata keçirmək nəzərdə tutulmuşdur.


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
əlaqə:elchinh@azstat.org +994 12 538 90 12